# Biri şəhid, digəri qazi olan iki qardaş



***Azərbaycan tarixinə qızıl hərflərlə həkk edilən "2020-ci 27 Sentyabr - 8 Noyabr səhifəsi" müzəffər Ordumuzun Vətən savaşı, Şəhidlərin canı, qanı ilə yazıldı. 44 gün ərzində Zəfərə imza atan Azərbaycan 3 000 şəhid verdi. Bəli, müharibə qan-qada, aldığı canlarla dəhşət saçır. Haqqın müdafiəsi uğrunda ona qoşuluraq öz canını fəda edənlər ölmür, Şəhidlik zirvəsinə ucalırlar. Xalqımız o Zəfəri bizə yaşadan Azərbaycan Silahlı Qüvvələri ilə qürur duyur, Şəhidlərimizin qarşısında baş əyir!.. Qarşısında böyük minnətdarlıq hissi ilə baş əydiyimiz Şəhid igidlərimizdən biri də Elşən Mehbalıyevdir. Şəhidimizin haqqında onun anası Cəmalə xanım danışacaq.***

## Anım







"

*Oğlum bu gün həyatda olsaydı, onunla bugünkü kimi qürur duyardıq*

- Bir ana kimi oğlumun yoxluğu məni nə qədər sarsıtsa da, "44 günlük Vətən müharibəsi Şəhidi Mehbalıyev Elşənin anasıyam" sözlərini böyük qürur hissi ilə deyirəm Elşən haqqında kimdən soruşsanız, hər kəsdən eyni cavabı alarsınız. Mehriban, dostcanlı, deyib-gülən, uşaqla-uşaq, böyüklə-böyük idi. Elə müəllimləri də onu belə xatırlayırlar. Orta məktəbdə təlim-tərbiyəsi ilə hər zaman seçilən şagird olub. Müəllimləri Elşəni müsbət keyfiyyətləri və davranışlarına görə çox sevirdilər.

***- Elşənin müharibəyə getməsini necə xatırlayırsınız?***

- Mənim iki oğul övladım var. Elşən də, qardaşı Elnur da orta təhsillərin başa vurduqdan sonra hərbi xidmətə yollandılar. Hər ikisi xidmətlərini başa vurduqdan sonra hərbdə qalmağa, bu şərəfli peşəni davam etdirməyə qərar verdilər. Biz də ata-ana olaraq onların bu fikrinə hörmətlə yanaşdıq. Vətənpərvərlik gərək insanın qanında, canında olsun.

Əlbəttə, biz valideynlər uşaq yaşlarından övladlarımıza düşmənlərimizin millətimizə necə zülm etdiklərini, hansı faciələri yaşatdıqlarını daim danışırdıq. Böyüdükdən sonra isə özləri hər şeyi gördülər, öyrəndilər. Məhz buna görəydi ki, övladlarımın ikisi də hərbə üz tutdu.

44 günlük Vətən müharibəsinin ilk dəqiqələrindən iki qardaş fərqli istiqamətlərdə öndə gedənlərdən oldular. Bu çətin döyüşlərin 40 cı günündə böyük oğlum Elşən Ağdərədə Şəhidlik zirvəsinə ucaldı. Elnur isə çox ağır yaralanaraq qazi oldu və "Bayraq" ordeni ilə təltif olundu.

***- İki oğlunuzun da müharibəyə gedişini necə qarşıladınız?***

- Əvvəl-axır müharibə olacağını hər birimiz bilirdik. Elşənin ən böyük arzusu düşmən tapdağı altında qalan torpaqlarımızı azad etmək idi. Əslən Kəlbəcər rayonunda olduğu üçün hər gün mütləq o torpaqları alacaqlarından danışırdı, buna inanırdı. Bizi buna hazırlayırdı həmişə. Yenə də iki oğulu birdən döyüşdə olan ana, ata kimi çox böyük qorxu, həyəcan içərisindəydik. Adı müharibədir. Qandır, qadadır.

***- Sizinlə danışırdımı?***

- Hər fürsət tapdıqca bir-iki dəqiqəlik də olsa zəng edib yaxşı olduğunu deyirdi. Narahat olduğumuzu bildiyi üçün heç vaxt xəbərsiz qoymazdı bizi. Qardaşından çox narahat idi deyə onun da zəng edib-etmədiyini soruşurdu.

***- Şəhid xəbərinin ürəyinizə vurduğu yara qapanmaz o gün müharibənin neçənci günü idi?***

- Əlbəttə, qorxurdum, iki oğlum müharibənin, odun-alovunun içində idi Gecə-gündüz sağ-salamat gəlmələri üçün dua edirdim. Hər an ürəyimiz səksəkədə idi; nəsə olar, kimsə xəbər gətirər deyə həyəcan içində idik Müharibənin 40-cı günündə Elşənin Şəhid olması xəbər gəldi bizə...

***- Müharibə 4 ildir bitib. Bir qəhrəman Azərbaycan igidi kimi oğlunuza baxıb, ürəyinizdə nə düşünürsünüz?***

- Oğlum bu gün həyatda olsaydı, onunla yenə bugünkü kimi qürur duyardıq. Onu da bilirik ki, ucaldığı zirvə hər kəsə nəsib olmayan, Allahın seçdiyi, layiq gördüyü kəslərin çata biləcəyi bir ucalıqdır. Nə qədər ağır, dözülməz olsa da, oğlumun Allah tərəfindən seçilmiş olması, Vətəni, torpağı uğrunda öz canından, qanından gözünü qırpmadan keçmiş olması bizim üçün qürur mənbəyidir. Bunu hər kəs bacarmır. Dildə hamı deyə bilər, ancaq əməldə Vətən üçün hər kəs canını fəda etməz. Ümidvaram, o torpaqlarda gəzən hər kəs oranın necə qiymətli yerlər olduğunu dərk edər. Orada neçə igidin qanı olduğunu, neçə canlar bahasına azad olunduğunu başa düşərək gəzər. Bizim də ürəyimiz təskinlik tapar ki, balalarımıza dəyər verilir. "O torpaqlar uğrunda canlarından keçməyə dəyərmiş", - deyə bir daha əmin olarıq.

***- Şəhid ailələrinə göstərilən münasibət siz qane edirmi?***

- Mən öz ailəm adından deyə bilərəm ki, bizə göstərilən münasibət çox yaxşıdır. Hər zaman yanımızda olurlar. İstər anım, istərsə də mövlud günlərində, bu kimi digər xüsusi günlərin hər birində dövlət əməkdaşlarının yanımızda olduğunu görürük. Bizə də elə bu lazımdır ki, Şəhidimizi unutmayıb hər zaman yad etsinlər. Allah hər birindən razı olsun.

***- Şəhid adından istifadə edib yersiz davranışlar göstərən bəzi ailələr haqqında da eşidirik, onlara münasibətiniz nədir?***

- Şəhid ailəsi olmaq ağır statusdur. Bu adı daşımağı bacarmaq lazımdı. Bu ada layiq olmağı, oğullarımızın bizə əmanət etdiyi adı onlara layiqli şəkildə daşımaq lazımdır. Ən başda da oğullarımızı düşünüb addım atmalıyıq. Hər cüzi məsələdən ötrü "şəhid ailəsiyəm" ifadəsini işlətmək düzgün deyil. Lazım gələrsə, vacib nəsə olarsa, bu, başqa məsələ. Ağırlığımızı qoruyub-saxlamağı bacarmalıyıq. Unutmamalıyıq ki, bizi əbədi dünyada üzlərinə alnıaçıq, üzüağ baxa biləcəyimiz Şəhid balalarımız gözləyir.

***- Bu gün Şəhidlik zirvəsində olan igidlərimizin ailələrinə nə sözünüz var?***

- Allah bütün Şəhidlərimizin məqamını, uca şəhadətini qəbul etsin. Bu dərdi layiqincə çəkən, ürəyində Şəhid yarası ilə yaşayan hər bir ailəyə Allahdan səbir, dözüm və möhkəm cansağlığı arzu edirəm.

**Qeyd:**

İki qardaş, iki igid - adlarını qəhrəmanlıq tarixinə.qızıl hərflərlə yazdılar. Biri qazi kimi döndü evinə, biri azad xalqın şəhadətə yüksələn oğul kimi. Vətən müharibəsində qardaşlardan biri Şəhid, digəri isə qazi oldu. Mehbalıyev Elşən Təvəkkül oğlu 1994-cü ildə Bərdə rayonunun Otuzikilər kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Daha sonra müxtəif kurslarda iştirak edib. Gizir Elşən Mehbalıyev cəbhənin Tərtər rayonu istiqamətində yerləşən N. saylı xüsusi təyinatlı hərbi hissədə xidmət edib. Onun ən böyük arzusu torpaqlarımızın işğaldan azad edilməsi olub.

Elşən öncə Murovdag yüksəkliyinin alınmasında, daha sonra Talış və Suqovuşan kəndlərinin işğaldan azad edilməsində gedən ağır döyüşlərdə iştirak edib. Noyabrın 4-də Şəhidlik zirvəsinə yüksəlib. Elşəndən iki yaş kiçik qardaşı Elnur da xüsusi təyinatlı qüvvələrdə xidmət edib. Hər iki qardaş cəbhənin müxtəlif istiqamətlərində Vətən müharibəsində iştirak edib, döyüşüb. Elnur Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanıb. Tibb məntəqəsinə gətiriləndə sonradan müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə qatılıb. Qardaşının Şəhid xəbərini döyüşdə olarkən alır. Elşən və Elnur qardaşları göstərdikləri şücaətə, igidliyə görə müxtəlif orden və medallarla təltif edilibiər.

***Tahirə Qafarlı***